*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 iyun 2016-cı il № 47 (2062) Qiymətі 25 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Sankt-Peterburq şəhərində Prezident Vladimir Putin ilə görüşüb.***



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan dövlətinin başçısını salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İcazə verin, sizi Peterburqda salamlayım.

Bizim hansı problemlə bağlı toplaşmağımız yaxşı məlumdur. Bu, bizə çoxdan qalmış Qarabağ problemidir. Lakin mən bizim görüşümüzdən istifadə edib, ilk növbədə yenicə başa çatmış Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu fonunda ikitərəfli münasibətlərimiz barədə də danışmaq istərdim. Təəssüflə qeyd etmək istərdim ki, bizə məlum olan səbəblər üzündən həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin bir qədər azalmasını müşahidə edirik. Burada enerji daşıyıcılarının qiymətlərinin azalması da, valyutaların məzənnə fərqləri də təsir göstərir. Biz sizinlə səbəbləri bilirik.

Mən bizim bugünkü görüşümüzdən istifadə edərək həm bu barədə, həm də ikitərəfli görüşlərimizin məzmununu təşkil edən bütün məsələlər, o cümlədən humanitar aspektlər barədə danışmaq istərdim. Azərbaycanda rus dilinin öyrənilməsinə necə qayğı ilə yanaşıldığını, bizim ali məktəblərimizin filiallarının necə uğurla fəaliyyət göstərdiyini bilirik. Biz bütün bunları yüksək qiymətləndiririk. Ümidvaram ki, bu iş bütün istiqamətlər üzrə davam etdiriləcək.

Sizi görməyə çox şadam. Xoş gəlmisiniz.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi:

- Sağ olun, hörmətli Vladimir Vladimiroviç.

Əvvələn, bizi növbəti dəfə Rusiyaya səfərə dəvət etdiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Fürsətdən istifadə edib sizi növbəti Peterburq Beynəlxalq İqtisadi Forumunun uğurla keçirilməsi münasibətilə də təbrik etmək istərdim. Builki Forum yubiley forumudur. Forum bu illər ərzində qlobal siyasət və iqtisadiyyat məsələlərinin müzakirəsi və həlli üçün ən mühüm məkanlardan birinə çevrilib. Azərbaycan Forumun işində fəal iştirak edib. Bizə xüsusilə xoşdur ki, Azərbaycanda Rusiya Bankı tərəfindən qismən maliyyələşdiriləcək iri energetika obyektinin yaradılması barədə sənəd sizin iştirakınızla imzalanıb.

Əlbəttə, bugünkü əsas diskussiyanın mövzusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsidir. Mən bu görüşü keçirmək təşəbbüsünə və məsələnin həllində Rusiyanın oynadığı konstruktiv rola görə sizə təşəkkür edirəm. Münaqişə uzanıb. Rusiyanın və ATƏT-in Minsk Qrupunun digər həmsədrlərinin bəyan etdiyi kimi, status-kvo qəbuledilməzdir. Biz bu bəyanatı tamamilə dəstəkləyirik. Lakin status-kvonun dəyişməsi üçün 20 ildən artıq müddətdə Azərbaycanın işğal altında olan ərazisinin işğaldan azad edilməsi başlanmalıdır. Bu gün biz bu barədə ətraflı danışacağıq. Biz ümid edirik ki, son iki ildə praktiki olaraq aparılmayan danışıqlar prosesinə konstruktiv dinamika verməyə nail olacağıq.

Əlbəttə, bu görüş həm iqtisadi, həm də digər sahələrdə münasibətlərimizin geniş spektrini müzakirə etmək üçün yaxşı imkandır. Düşünürəm ki, əmtəə dövriyyəsinin azalması müvəqqəti haldır. Biz onun bərpa edilməsi və artırılması yollarını axtarırıq. Düşünürəm ki, belə də olacaq. Energetika sahəsində fəal qarşılıqlı əlaqələrimiz, nəqliyyat sahəsində əməkdaşlığa yaxşı perspektivlər var. Humanitar mövzu həmişə xüsusi əhəmiyyət kəsb edib. Bu, xalqlarımızı bir-birinə yaxınlaşdıran mövzudur. Bunsuz münasibətlər qurmaq mümkün deyil. Bizim münasibətlərimizi həm Rusiya, həm də Azərbaycan strateji tərəfdaşlıq münasibətləri kimi səciyyələndirir.

Dəvətə görə bir daha təşəkkürümü bildirirəm və ümid edirəm ki, sizi tezliklə Azərbaycanda görəcəyəm.

Vladimir Putin: Sağ olun.

* * *

İyunun 20-də Sankt-Peterburq şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olub.

Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşünün yekunlarına dair birgə bəyanat qəbul edilib.

Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müntəzəm əlaqələrin mühüm əhəmiyyət daşıdığını qeyd edərək ATƏT-in Minsk Qrupunun işini tamamlayacaq bu formatda görüşləri davam etdirmək barədə razılığa gəliblər. Dövlət başçıları münaqişənin nizamlanmasında inkişafa şərait yaratmağa imkan verən bir sıra məsələlərdə qarşılıqlı anlaşmanın əldə olunduğunu ifadə ediblər.

Bununla da Prezident İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatıb.

**AZƏRTAC**



Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimi keçirilib

2-ci səhifədə



Vətəni qoruyan oğullar

3-cü səhifədə



"Ali Baş Komandana inanır, əsgərlərimizə güvənirik"

5-ci səhifədə



Hərb tarixinin öyrənilməsi vacib məsələdir

6-cı səhifədə

AZƏRBAYCAN ORDUSU

# Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimi keçirilib

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələri müasir silah və texnika ilə təmin olunub, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyəti xeyli gücləndirilib. Qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvan bu gün etibarlı müdafiə olunur. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq muxtar respublika ərazisindəki ordu, birləşmə və hissələrin döyüş qabiliyyətinin, eləcə də şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılır, hərbi təlimlər keçirilir.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 20-də Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov hərbi təlimi izləyib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə Ali Məclisin sədrinə raport verib.

Bildirilib ki, təlimə 2085 nəfər şəxsi heyət, 200-dən artıq döyüş və müxtəlif təyinatlı texnikalar cəlb olunub. Qüvvə və vasitələrə ərazinin xarakterinə uyğun olaraq hədəf şəraiti yaradılıb. Təlimin keçirilməsi qoşunların və döyüş sistemlərinin idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi və döyüş uzlaşmasının səviyyəsinin artırılması məqsədi daşıyırdı.

Təlim 3 mərhələdə həyata keçirilib. Birinci mərhələdə müdafiə əməliyyatlarının aparılması, düşmənin hücumunun dayandırılması və əks-zərbə hazırlığının başa çatdırılması, ikinci mərhələdə əks-zərbənin endirilməsi, düşmən bölmələrinin məhv edilməsi və itirilmiş ərazilərin bərpası, üçüncü mərhələdə isə hücumun inkişaf etdirilməsi, düşmənin müdafiə dərinliyində əlverişli sahələrin ələ keçirilməsi və nəzarətdə saxlanılması tapşırıqları icra olunub.

Təlim ssenarisinə əsasən, düşmən tərəfi döyüş hazırlığına başlayaraq kəşfiyyat və radiokəşfiyyat fəaliyyətlərini gücləndirib. Əlahiddə Ümumqoşun Ordunun kəşfiyyat qrupları düşmənin dərinliyində idarəetmə məntəqələrinin, raket-artilleriya və hava hücumundan müdafiə vasitələrinin atəş və start mövqelərinin aşkar edilməsi üzrə fəaliyyətə başlayıb, pilotsuz uçuş aparatı və kəşfiyyat müşahidə cihazının vasitəsilə qarşı tərəfin fəaliyyəti həm döyüşqabağı, həm də döyüş müddətində izlənilərək nəzarətdə saxlanılıb. Düşmən strateji rayonları ələ keçirmək və torpaqlarımızı işğal etmək məqsədilə irimiqyaslı hücum əməliyyatına başlayıb və təmas xəttində atəşkəs rejimini pozaraq mövqelərimizi iriçaplı silahlardan atəşə tutub. Əlahiddə Ümumqoşun Ordu operativ qaydada əks-hücum əməliyyatını yerinə yetirib, xüsusi təyinatlı qruplar gizli şəkildə düşmənə hücum edərək hakim yüksəklikləri ələ keçiriblər. Bu zaman motoatıcı briqadalar minaatanlardan düşmənin komanda məntəqələrinə və artilleriyasına atəş zərbələri endirərək dərinlikdəki hədəfləri məhv ediblər.

İstənilən hava və məhdud görmə şəraitində düşmənin hərəkətsiz və hərəkət edən tanklarını, özüyeriyən artilleriya qurğularını, vertolyot və təyyarələrini məhv etmək üçün nəzərdə tutulan raket kompleksləri düşmənə böyük itkilər verib. Bu zaman hava hücumundan müdafiə bölmələri zenit-raket kompleksləri və zenit artilleriya qurğularından istifadə edərək düşmən aviasiyasına zərbələr endirib, strateji obyektləri hava hücumlarından qoruyub. Sonra atəş dəstək vertolyotları düşmən müdafiəsinin yaxın dərinlikdəki zirehli obyektlərinə zərbələr endirib və düşmən üzərində atəş üstünlüyü qazanılıb. Hərbi təlimdə səyyar tibb və təmir-təxliyyə qrupları da fəallıq nümayiş etdiriblər.

Əks-zərbə atəş hazırlığı komandasından sonra reaktiv sistemlər artilleriya qurğuları ilə birlikdə düşmənin aşkar edilmiş qruplaşmalarını, hərbi və inzibati obyektlərini məhv edib. Düşmənin mina-partlayış zonası keçildikdən sonra əsas qüvvələr artilleriya bölmələrinin atəş dəstəyi ilə döyüşə daxil olub. Tank və motoatıcı bölmələr, yandan keçən dəstələr düşmənə cinahlardan və arxadan sarsıdıcı zərbələr endirərək möhkəmlənməyə imkan verməyib, ordu aviasiyası, atəş dəstək və hərbi nəqliyyat vertolyotları hücum qruplaşmasını havadan dəstəkləyib. Bu zaman briqadanın tanklarla gücləndirilmiş ikinci eşelon bölmələri də döyüşə yeridilib, taktiki hava desantı xüsusi təyinatlı qruplarla qarşılıqlı əlaqədə düşmən müdafiəsinin dərinliklərindəki dağ aşırımlarını və mühüm yüksəklikləri ələ keçirərək Azərbaycan bayrağını qaldırıb. Bununla da Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti təlimdə yeni texnoloji vasitələri və silahları uğurla tətbiq edərək döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirib.

Təlimdən sonra şəxsi heyətlə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov təlimin uğurla başa çatması münasibətilə zabit, gizir və əsgərləri təbrik edərək deyib: “Bu gün Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasındadır. Bunun bir səbəbi ölkəmizdəki sabitlik və davamlı inkişafdırsa, digər səbəb güclü və qüdrətli ordunun olmasıdır. "Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır", - deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi tədbirlər bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycan Ordusu inkişaf edərək müstəqilliyimizin təminatçısına çevrilib. Torpaqlarımız etibarlı müdafiə olunur.”

Ali Məclisin sədri bildirib ki, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. “Əlahiddə Ümumqoşun Ordu və Silahlı Qüvvələrimizin muxtar respublikadakı digər birləşmə və hissələri böyük təşkilatlanma və quruculuq yolu keçmiş, şəxsi heyət peşəkarlığını artırmışdır. Ordunun döyüş qabiliyyətinin və şəxsi heyətin peşəkarlığının artırılmasında hərbi təlimlərin mühüm rolu var. Torpaqlarımızın işğal altında, ölkəmizin isə müharibə şəraitində olması hərbi təlimlərin planlı keçirilməsini, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin yüksəldilməsini zərurətə çevirib. Bugünkü hərbi təlimlər bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı uğurla yerinə yetirmək əzmindədirlər. Bu isə müasir ordu üçün ən vacib keyfiyyətdir.”

- Torpaqlarımızın müdafiəsi sizə tapşırılıb, - deyə Ali Məclisin sədri qeyd etdi: - Bu, müqəddəs vəzifədir. Ona görə də şəxsi heyət xidməti nümunəvi təşkil etməli, müasir silah və texnikalardan istifadə qaydalarını mənimsəməli, nizam-intizama əməl olunmalı, döyüş qabiliyyəti daim artırılmalıdır. Bu gün Naxçıvan blokada şəraitində yaşayır. Ərazisinin çox hissəsi düşmənlə sərhəddir. Buna baxmayaraq torpaqlarımız etibarlı müdafiə olunur. Hərbi qulluqçuların döyüş ruhu və vətənpərvərliyi yüksəkdir. Xalq-ordu birliyi vardır. İnsanlar sizə güvənərək rahat yaşayır. Hər bir hərbi qulluqçu da bilməlidir ki, onun arxasında güclü dövlətimiz və xalqımız dayanıb.



Ali Məclisin sədri qarşıdan gələn 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Silahlı Qüvvələrimizin Naxçıvandakı birləşmə və hissələrinin şəxsi heyətini təbrik edib, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Ölkəmiz qarşısında duran əsas vəzifə - torpaqlarımızı işğalçılardan azad etmək üçün biz hazırıq və hazır olmalıyıq" fikirləri ilə tamamlayıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlim zamanı qarşıya qoyulan məqsədlərə tam nail olunduğunu və Əlahiddə Ümumqoşun Ordunun bundan sonra da istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır olduğunu bildirib, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərə görə minnətdarlıq edib.

Ali Məclisin sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb. Bütün şəxsi heyətə Ali Məclisin sədri adından təşəkkür elan olunub.

Sonda zabit, gizir və əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

Ön xətdən reportaj

# Vətəni qoruyan oğullar

***Cəbhə bölgəsində yerləşən və yarandığı gündən şəxsi heyəti ilə düşmənə sipər olan ilk hərbi hissələrimizdən birinə ezamiyyətə gəlmişik. Bir yay səhəridir, qatardan düşən kimi ətrafdakı yaşıllığın sehrinə düşürük. Şair demiş, təbiət elə bil adamı ilhama çağırır, gül-çiçəyin ətrini duyduqca, həm burda yaşayanlara, həm də bu yerləri göz bəbəyi kimi qoruyan döyüşçülərə həsəd aparıram.***



Qərargahda növbətçidən və bir neçə zabit-gizirdən savayı heç kim gözə dəymir. Cavabdeh zabitləri soruşduqda, ön xətdə olduqlarını bildirdilər. Vaxt itirməyib düşmənlə təmas xəttindəki taborlardan birinə yola düşürük. Yenə də yolumuz qədim Qarabağımızın barlı-bərəkətli, güllü-çiçəkli kəndlərindən keçir. Hər yanda adamlar əmin-arxayın təsərrüfat işləri ilə məşğuldur, soyuq fəsillərin azuqəsi yayda yığılmalıdır, - düşünən kəndli hər günün, hər saatın qədrini bilir. Bizi ön xəttə aparan hərbçimizin sözü məni xəyallarımdan ayırır.

- Sol tərəfdəki darvazaya baxın, düşmənin atdığı mərmilərin izləri aydınca görünür.

Göstərilən səmtə baxanda tək darvazada yox, elə evin arxa divarında da dağıntıları görürəm. Amma bağ-bağatda çalışan bir neçə nəfəri görəndə, belə qorxmaz insanlara "Afərin olsun!" - deyirəm. Deməli, aprel döyüşləri zamanı erməni faşistləri bu istiqamətdə də dinc əhaliyə ağır artilleriya silahlarından atəş açıblar. Amma Azərbaycan əsgərinin gücünə, silahına güvənən əhali ev-eşiyini tərk etməyib. Əminliklə düşünüb ki, daha 15-20 il əvvəlki vaxtlar deyil, indi Silahlı Qüvvələrimizin döyüş hazırlığı qarşısında heç bir qüvvə tab gətirə bilməz.

## Təcrübəli gizir

Ön xəttə çatanda bizi burada zabit Tariyel Didarov qarşılayır. Taborda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan hərbçi ilə vaxt itirmədən səngərlərə yola düşürük. Düşmənlə təmas xəttində yerləşən bölmələrin gündəlik qayğılarından danışan zabitə görə, indi cəbhə xəttində xidmət etmək çox asanlaşıb, çünki əsgərləri sosial şəraitlə təmin etmək üçün vacib olan bütün tədbirlər görülüb.

Qarşıdakı döyüş postundan çıxan bir nəfər əsgəri qaydada özünü təqdim edir:

- Gizir Qaçayev: "Döyüş növbəsində heç bir hadisə baş verməyib, nisbi sakitlikdir."

Taleyini 2011-ci ildən hərbə bağlayan gizirlə tanışlıqdan öyrənirəm ki, hərbi xidmətini əsasən cəbhə bölgələrində keçirib, Naxçıvanda beş il taqım komandirinin müavini olub. İndi isə bu bölgədə bölüyün baş çavuşu vəzifəsində xidmətini davam etdirir.

- Qaçayev, şəxsi heyətin məişətinə cavabdeh olan bir hərbçi kimi əsgərlərin təminatı barədə nə deyə bilərsən?

- Bir vacib məsələni qeyd edim ki, bu gün səngərdə döyüş növbətçiliyini keçirən əsgər dövlətinə və xalqına güvənir, bu güvənc də onun bir döyüşçü kimi məsuliyyətini qat-qat artırır, - deyə gizir öz fikirlərini bölüşür. - Əsgər hiss edəndə ki, vətəndaşı olduğu dövlətin rəhbəri onun rahatlığı üçün lazım olan bütün tədbirləri görür, onda əsgər də qürurlanır, dövlətinə və xalqına sədaqətlə xidmət etməyi qarşısına məqsəd qoyur. Doğrudan da, bu gün cəbhə bölgəsində şəxsi heyətin sosial-məişət qayğıları yüksək səviyyədə həll edilib. Keyfiyyətli qidalanmadan tutmuş müasir məişət şəraitinə qədər hər şey döyüşçülərimizi qane edir. Heç nədən korluğumuz yoxdur, bircə Vətənimizi qoruma ğı, düşməni tezliklə ərazilərimizdən qovub çıxarmağı düşünürük.

Təcrübəli gizirə görə, aprel döyüşlərində düşmənə vurulan sarsıdıcı zərbələr burada da şəxsi heyəti mübarizə əzminə kökləyib. "Hər bir əsgərimiz Lələtəpə və digər mövqelərin iştirakçısı olmaq istəyirdi. Elə bu istiqamətdə də hücuma keçmək əmrini gözləyirdik. Hər kəsin barmağı silahının tətiyində idi. Bircə döyüş əmri verilsəydi, düşmənə gücümüzü necə lazımdısa göstərərdik."

## "Biz sizdən öyrəndik qəhrəmanlığı"

Döyüş növbəsində bacarıqlı manqa komandiri kimi kollektivin hörmətini qazanmış və əsl idmançı görkəmi ilə diqqətimizi cəlb edən baş çavuş Rafiz Cəfərovla görüşürəm. 1987-ci ildə Ağdam rayonunun düşmənlə təmas xəttindəki kəndlərindən birində dünyaya göz açan Rafizin uşaqlığı müharibə illərinə təsadüf edib. Güllə, qəlpə səsinə öyrəşib. Ətrafındakı insanların döyüşdüyünə şahid olub, yaxın qohumlarının şəhid olmalarından bir uşaq kimi təsirlənsə də, böyüdükcə hər şeyi dərk edib və onların müqəddəsliyə qovuşduqlarını dərindən başa düşüb. Bilib ki, o adamlar doğma yurdun yağı düşməndən qorunması uğrunda ədalətli mübarizənin qurbanlarıdır.

Rafiz deyir ki, yeniyetmə çağlarından idmanla məşğul olub, fiziki vərdişlərini möhkəmlədib. Başqa bir qoşun növündə xidmət edəndə də daim doğulduğu el-obanı, doğmalarını, ata-baba ocağından zorla didərgin salınmış yurddaşlarının taleyini düşünüb. Və elə bu həsrət onu cəbhə bölgəsinə gətirib.

- Uşaq vaxtı evimizin damında yuvası dağılmış bir quşun həyəcanı mənə çox ağır təsir bağışlamışdı, - deyir manqa komandiri. - Bunun səbəbini atamdan soruşanda dedi ki, oğul, quşlar da bizim kimi canlıdır, onlara da öz yuvaları əzizdir. İndi neçə illərdir ki, günahsız adamlar minbir əziyyət, alın təri ilə tikib qurduqlarından ayrı düşüblər. Onların nələr çəkdiklərini düşünəndə uşaq vaxtı qarşılaşdığım həmin hadisə, zavallı quşcuğaz yadıma düşür. Bəs görəsən, insan hüquqlarından, demokratiyadan geninə-boluna danışan təşkilatlar, dövlətlər hara baxır? Niyə işğalçıya təzyiqlər göstərilmir? Axı ermənilər bizə qarşı haqsızlıq törədiblər, doğma yurd yerlərimizi zəbt ediblər.

Gözlərində düşmənə nifrət qığılcımı duyduğum döyüşçünü sakitcə dinləmək olmur. Mövzunu dəyişib aprel döyüşlərindən, ordumuzun qazandığı uğurlardan söhbət açıram və belə qələbələrimizə yenə də şahid olacağımızı deyirəm. Rafiz isə deyir ki, həmin günlərdə sakit dayana bilmirdi. "Komandirimə dəfələrlə deyirdim ki, icazə verin, biz də döyüşə atılaq, dayandığımız mövqelərdən düşmənə zərbələr vuraq. Komandir dedi ki, əmr gəlincə gözləmək lazımdır. İnanın, səbrim artıq tükənmişdi, axı xalqımıza illərlə işgəncələr yaşatmış düşməni də rahat buraxmaq olarmı? Aprel savaşında şəhid olan hər bir döyüşçü həmkarımın ruhu daim canımızda, qanımızdadır. Samid İmanov, Murad Mirzəyev, Raquf Orucov kimi igidlərimizin ruhu qarşısında baş əyirəm. Məhz onların qəhrəmanlığı bu gün də bizim üçün ən layiqli örnəkdir. Rahat uyuyun, qardaşlarım, sizin kimi mərd, mətin komandirlərdən öyrəndik qəhrəmanlığı, sizlərin qisası düşməndən tezliklə alınacaqdır. And içirəm ki, axıtdığınız qanlara, döyüşdüyünüz amallara görə, hər an hər birimiz bu səngərdən düşmən üzərinə şığımağa hazırıq".

## Bir ailədən iki döyüşçü...

Rastlaşdığım döyüşçülərdən biri ilə tanışlıqdan öyrəndim ki, ailədə iki qardaşdılar və hər ikisi hazırda Vətənimizin müdafiəsindədir. Alxan Hidayətzadə Qobustan rayonunun Ərəbqədim kəndindəndir. Halal, sadə bir ailədə böyüyüb boya-başa çatıb. Hərbi xidmətinin 15-ci ayını tamamlamaq üzrədir. Deyir ki, baş atıcı kimi bir ildir dayandığı mövqelərdə Vətənimizi qoruyan oğulların sırasındadır. Əsgərə görə, hərbi xidmətə gəldiyi ilk gün öz həyəcanı, şirinliyi ilə xatirəsindən silinməyəcək.

- Hərbi xidmətə yola düşəndə boynuma sarılıb kövrələn anam bircə kəlmə bunu dedi: "Oğul Vətən əmanətidir, gərək Vətənimizi də ana südün kimi halal bilib son nəfəsinədək qoruyasan". İndi o vaxtdan 15 ay keçir, məzuniyyətdə olanda bildim ki, qardaşım Ramazan da əsgər gedib. Valideynlərim andiçmə mərasimindən, qardaşıma hərbi formanın necə gözəl yaraşdığından söhbət açdılar. Qürurluyam ki, bir ailədən iki qardaş Vətənimizin müdafiəsində dayanan əsgərlərik. Doğrudan da, əsgər olmaq şərəfdir, başa düşəndə ki, ikinci ana bildiyin Vətəni qoruyursan, onda fərəhin yerəgöyə sığmır. Qoy 18 il zəhmətimizi çəkən valideynlərimiz bizimlə fəxr duysunlar. Hər bir ata-ananın övladları ilə öyünməsi onlar üçün başucalığıdır. İndi sevinirəm ki, elimizdə-obamızda valideynlərimə hər kəs fəxrlə baxıb köks ötürür, "İki döyüşçü oğlun valideynləridir", - deyirlər.

- Alxan, artıq hərbi xidmətini başa vurmağına az qalıb, hansı hisslər keçirirsən?

- Əlbəttə, xoş hisslərin əhatəsindəyəm. Əsgərliyimi bitirən gün ən əvvəl valideynlərimin görüşünə tələsəcəm və anama üz tutub deyəcəm ki, öyüd-nəsihətinə layiq xidmət etmişəm, südünü mənə halal edə bilərsən. Bir neçə gün qohumlarım-dostlarımla görüşəndən sonra isə qardaşımın xidmət etdiyi bölgəyə gedəcəyəm. Qardaşıma döyüş növbətçiliyimdə keçirdiyim günlərlə bağlı xatirələrimdən danışacağam.

Təcrübəli əsgərlərdən Samir İsmayılov, Amin Əmiraslanov, Səyyad Ağayev, Şamxal Hüseynov, Nicat Məmmədov, Camal Sultanov və başqaları ilə söhbətlərimdə də hər birinin mənalı ordu həyatından xoş xatirələrini dinləyirəm. Vətənə can əsirgəməyən hər kəs döyüşə atılacağı günün həsrətində olduğunu deyir. Samir də deyir ki, əsgərliyini bitirməsinə az qalıb, amma döyüşmək, düşmənə gücünü sübut etmək və yeni yüksəklikləri fəth edəcək igidlərin cərgəsində olmaq arzusundadır. Samir, narahat olma, əgər düşmən doğma torpaqlarımızı sülh yolu ilə, qan tökülmədən geri qaytarmazsa, onda Vətənimizin sən yaşda, böyük-kiçik oğullarının hamısı silaha sarılacaq. O gün böyük Qələbəmizin təməli qoyulacaq. Həmin günlərdə görüşənədək...

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**M.MÖHBALIYEVİNDİR**

# Operativ-taktiki təlimlər davam edir



**Silahlı Qüvvələrin 2016-cı il üçün hazırlıq planına uyğun olaraq, iyunun 19-dan başlanan operativ-taktiki təlimlər davam edir.**

Yüksək döyüşə hazırolma səviyyəsinə gətirilən idarəetmə orqanları və qoşunlar mütəşəkkil və planlı qaydada yenidən qruplaşmanı həyata keçirərək cəmləşmə rayonlarına çıxarılır, aerodromlarda aviasiyanın, dənizdə isə gəmilərin dislokasiya yerləri dəyişdirilir.

Təlimlərin planında nəzərdə tutulmuş tədbirlərin vaxtında yerinə yetirilməsi və icrasına nəzarət Silahlı Qüvvələrin Baş Qərargahı tərəfindən müasir rabitə və müşahidə vasitələrindən istifadə edilməklə həyata keçirilir.

Təlimlər iyunun 24-də yekunlaşacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**





## İz izə qarışıb yola dönəcək...

Gah qaralan, gah bozaran havadan qar qoxusu gəlir. Qar yağışa, o dağlarda tanımaq, tanıtmaq istədiyim əsgərlərlə könül söhbəti eləmək niyyətim ləngiyəcək. Bu narahatlıq bayaqdan bəri ürəyimə yük olub...

"Könüldən könülə yollar görünür" - Səməd Vurğun belə deyərdi. Başlanğıcını Vətəndən götürüb Vətəni sevənlərin ürəyindən keçən yollardan birinin yolçusuyam. Bu kəlamı üztutalğacı eləyib ürəyimə çataqlı olan bir məkana tələsirəm. 1992-nin qışından 2016-nın yazınacan uzanan ömrümdən üzülməyən yol da bu yolun duaçısıdı.

1992-ci ilin dekabrında Zəligöldə Sahib (indi Qarabağ əlili, ehtiyatda olan kapitan Sahib Aslanov - R.H.) döyüş yoldaşı elədiyi sazında "Ruhani" havasını ifa etmişdi. Çox "Ruhani"lər dinləmişəm. Bu, tamam başqa "Ruhani"ydi; Vətən deyən xalları-gülləri də, barmaqlarla simlərin, təzənəylə simlərin təması da ürəklərimizi dağlara, dağların o üzünə sarı çəkirdi. İlk səslənişindən min illər keçən bu saz havası onda da ruhumuzun tərcümanıydı. Xətainin qayibanə səsini eşitmişdim: "Sazın dediklərini silahınız tamamlasın!" Sazın dedikləri blindajda hamımızı o qayibanə səsin mətləbinə kökləmişdi...

...Əsgər qardaşlarımıza qardaş bildiyim dağları görüncə təmənnam Tufarqanlı Abbasın bir təmənnasına sarılır: duman, gəl-get bu dağlardan. Get ki, bu dağların qardaşı olan əsgərlər yaxşını pisdən, halalı haramdan, doğmanı yaddan aydınlığıyla seçə bilsin...

Möcüzəydimi, təsadüfüydümü, təbiətin getdiyimiz məkanda Vətənin keşiyini çəkənlərə can yandırmağıydımı, hər nəyiydisə, duman çəkilir...

Aradan 23 il keçib - Sahibi, Qurbanı, Bəhramı, İntiqamı, ... burada görmürəm. Tərxis olunublar. Başqa Sahiblər, Qurbanlar, Bəhramlar, İntiqamlar, ... xidmət edirlər. Nemət buradadı, Emin buradadı, Sahib, Fərid, Şahin, Vüsal, ... buradadı. Onların əhatəsindəyəm; 23 il əvvəlki ovqat, həmin istək.

Ürəyimdən keçib məni bu ucalığa - "hər cümləsinin əzəl mübtədası Vətən olan" oğulların yanına gətirən yolu dünyanın ən gözəl yollarından biri bilirəm; o gözəl yollardan biri də Lələtəpəyə aparır...

- Bir ildi xidmət edirəm. Təhkim olunduğum silahın atış xüsusiyyətlərini həm də mükəmməl mənimsəmişəm. Vətən döyüş növbəsi çəkdiyim səngərdən başlayır, - düşünürəm. Bu səngər qışda ocağımız, yayda sərinliyimiz olub. Yəni bizi payızda, qışda da himayə eləyib, yazda, yayda da. Biz də sinəmizi ona sipər bilirik. Yaxın vaxtlarda üzü o yana, Kəlbəcərə gedəcəyik. Onda səngərlərimiz sərhədlərimiz olacaq - Vüsal Rzayevin dediklərindən qürurlanıram.

Qürurlanıram və var səsimlə qışqırmaq keçir könlümdən: oğulların var, Vətən! Sıxılcımın çox çəkməyəcək, torpaqlarımız işğaldan azad ediləcək!...

23 il əvvəl dinlədiyim "Ruhani"ni dinləyirəm elə bil; yenə həmin ovqatdayam. Arzuladığım, eşitmədiyim saz havasını əsgər Sahib Həsənovun dedikləri tamamlayır:

- Bu doqquz ay mənə sevdiyim Vətənin nə olduğunu dərindən öyrətdi.

Ani olaraq susur. Silahına sığal çəkib aramla deyir:

- Silahın atış xüsusiyyətlərinə bələd olmaq azdı. O silahın sığındığı sinədə Vətən boyda ürək döyünməlidi. Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan əsgəri belə əsgərdi!

Nə deyəydim?! - Sahibi bağrıma basıram...

"Qorxaq gündə yüz dəfə ölür, igid bir dəfə", - bunu Fərid İsmayılov deyir. Dönüb qarşı tərəfə baxır. Bu baxışlarda çırpınan istəyin rəngini görmək çətin deyil. Qələbə rəngli istəkdi!..

"Qorxan gözə çöp düşər", - bunu Şəmsi İmanov deyir. Ərklə, ərk qarışıq sevgilərlə dostunun əlini sıxır. Bu munis təmas dağlara pıçıldamalı olduğum bir mətləbi xatırladır: əli əl isidir, dağlar. Səni, sənin zirvəndən Vətəni bu əllərin yiyələri qoruyur!..

- Samir həsrətlə o tərəfə baxanda qəlbimiz ağrıyır. Kəlbəcərdəndi. Çəkdiyi həsrət Kəlbəcər həsrətidi. Bu bizim də, bizim timsalımızda məmləkətin də həsrətidi. Bu həsrətin ömrünü gödəltməliyik. Bu həsrəti ürəklərdən birdəfəlik siləcəyik, - bunu mayor Nemət Rəhimov deyir. Həm də qədərsiz inamla deyir...

...Dənəbir-dənəbir qar yağır. İlin bu çağında bu ucalıqda yağan qara baxıram, qar dənələrinin arasından qarşı tərəfi gözdən qoymayan əsgərlərə baxıram. O isti baxışlar soyuğa qənim kəsilməkdədi...

...Qar qalağını keçib döyüş növbəsinə gedənlərin yerişinin saldığı iz hələ səngərlərə kimidi. Yaxın vaxtlarda bu iz ot basmış izlərə çatacaq, iz izə qarışacaq, yola dönüb arzuladığımız məkanlara uzanacaq. O məkanda işıq rəngli Qələbə, Qələbə rəngli işıq gözləyir bizi!..

Qar yağmır...

Buludların arasından işıq süzülür...

**Rəşid HÜSEYNOV, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### "İŞIK-2016" təlimləri başlayıb

Azərbaycanla Türkiyə arasında ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, iyunun 20-dən "İŞIK-2016" beynəlxalq axtarış-xilasetmə təlimləri başlayıb.

Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd Mi-17 döyüş-nəqliyyat və 3 ədəd Mi-35 döyüş helikopteri müştərək təlimlərdə iştirak etmək məqsədilə Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazaya gəlib.

Təlimlər iyunun 30-dək davam edəcək.

### Ermənistan və Azərbaycan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 22-də Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam kəndi yaxınlığındakı Ermənistan və Azərbaycan qoşunlarının qarşıdurma xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqin keçirilməsinə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq nəzarət edəcəklər.

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edir

İyunun 20-dən 24-dək Latina şəhərində (İtaliya Respublikası) effektiv görüntülü icra və nəzarət modulu üzrə icraedici kursu və NATO-nun kommunikasiya və informasiya sistemləri mövzusunda kurs, iyunun 20-dən 25-dək Tulon şəhərində (Fransa Respublikası) NATO-nun "MAREVAL" kursunda zabit-təlimatçı qismində iştirak, iyunun 20-dən 30-dək Gelzenkirxen şəhərində (Almaniya Federativ Respublikası) Vyana-11 sənədi üzrə beynəlxalq kurs, iyunun 20-dən iyulun 1-dək isə Tbilisi şəhərində (Gürcüstan) geniş təhlükəsizlik kontekstində müdafiənin idarə olunması kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 iyun 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 12 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Ali Baş Komandana inanır, əsgərlərimizə güvənirik"

***İslama görə, ayların sultanı hesab edilən Ramazan ayı paklıq, müqəddəslik və xeyirxahlıq rəmzidir. İnsanlar bu ay ərzində xoş niyyətlərini həyata keçirməyə və xeyirxah əməllər sahibi olmağa çalışırlar. "Azərkimya" İstehsalat Birliyinin kollektivi də bu gözəl günlərdən birində - iyunun 18-də cəbhə xəttindəki "N" hərbi hissəsinin döyüşçüləri ilə görüşə gəlmişdi.***





Millət vəkillərinin, müharibə veteranlarının, ziyalıların, sənət adamlarının və Sumqayıt şəhər ictimaiyyəti nümayəndələrinin qatıldığı mərasimdə hərbi hissənin düşmənlə təmas xəttindəki bölmələri təmsil edən əsgərlər iştirak edirdilər.

Öncə çıxış edən "Azərkimya" İstehsalat Birliyi ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, şair-publisist Rafik Oday müqəddəs Ramazan ayında əsgərlərlə keçirilən görüşün Silahlı Qüvvələr Günü ərəfəsində təşkil edilməsini xoş təsadüf adlandırdı. Rafik müəllim qeyd etdi ki, Milli Məclisin üzvləri Muxtar Babayev, Tahir Mirkişili, Mirzəcan Xəlilovla birgə 50 nəfərlik bir kollektiv ön xəttə - döyüşçülərin görüşünə böyük həvəslə gəlib.

Müəssisənin rəhbəri, millət vəkili Muxtar Babayev çıxışında ön xətdə xidmət edən əsgərləri salamlayaraq onlara həmkarlarının və tabeliyində olan kollektivin ən xoş arzularını çatdırdı. O bildirdi ki, müasir dövrdə ordu quruculuğunda qazanılan uğurlar Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaradıb. "Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Silahlı Qüvvələrimizin qısa müddət ərzində əldə etdiyi böyük nailiyyətlər hazırkı mərhələdə dövlətimizin rəhbərliyi, şəxsən Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən orduya göstərilən böyük diqqət və qayğının parlaq təzahürüdür. Aprelin əvvəllərində Azərbaycan Ordusunun cəbhə xəttində nümayiş etdirdiyi hərbi güc bir daha düşmənlərimizə və onların havadarlarına anlatdı ki, dövlətin və xalqın dəstəyi nəticəsində hərbi qüdrətini artıran doğma ordumuzu heç bir qüvvə sarsıda bilməz. Son bir neçə ildə Müdafiə Nazirliyi rəhbərliyinin dəstəyi ilə həyata keçirilən vətənpərvərlik tədbirləri cəmiyyətimizdə rəğbətlə qarşılanır. Şübhəsiz, belə tədbirlər həm orduda, həm də ictimaiyyət arasında yüksək əhval-ruhiyyə yaradır. Bu gün meydanda toplaşmış əsgərlərimizə həsədlə baxıram və düşünürəm ki, onların hər biri xalqın etimadını qazanmış hünərli Vətən oğludur. Doğrudan da, dövlət, xalq o vaxt güclüdür ki, onun qüdrətli ordusu var. Hamımız qətiyyətli Ali Baş Komandanımıza və əsgər oğullarımıza güvənirik. İnanırıq ki, Azərbaycanın hərbi gücü ilə torpaqlarımız tezliklə işğaldan azad ediləcəkdir."

Sonra çıxış üçün söz alan millət vəkili Tahir Mirkişili, Qarabağ müharibəsi veteranı Tərlan Hacızadə və digər ictimaiyyət nümayəndələri qarşıdan gələn 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə döyüşçüləri təbrik etdilər, onların timsalında Azərbaycan Ordusunun bütün əsgər və zabitlərinə, düşmənlə üz-üzə mövqelərdə ayıq-sayıq dayanıb Vətənin keşiyini çəkən döyüşçülərə ən xoş arzularını bildirdilər. Əminliklə qeyd etdilər ki, günbəgün hərbi gücünü artıran Silahlı Qüvvələrimiz istənilən an düşmənə layiqli cavab verməyə hazırdır.



Meydan sənət adamlarına verildi. Müğənnilərdən Şəbnəm Xəmmədovanın, Təranə Nurlunun, İmran Ağayevin, saz ifaçısı Səbinə Gədəbəylinin, illuziya ustası Fərhad Dadaşovun və başqalarının çıxışları əsgərlərin alqışları ilə qarşılandı. Xalq artisti, istedadlı aktyor və tamaşaçıların "Moşu Göyəzənli" kimi tanıdığı Valeh Kərimovun meydana daxil olması isə böyük coşqulara səbəb oldu. Əsgərləri salamlayan səhnə ustası kiçik bir səhnəcik yaradaraq bənzərsiz rolu ilə gənc döyüşçülərin gurultulu alqışlarını qazandı.

Sonra tədbir əsgər yeməkxanasında davam etdirildi. Müasir şəraitə malik olan yeməkxanada qonaqlar əsgərlərlə birgə nahar etdilər.

Axırda mayor Səməd Məmmədov çıxış edərək öz hədiyyələri ilə bayram ərəfəsində əsgərlərin görüşünə gəlmiş millət vəkillərinə və ictimaiyyət nümayəndələrinə komandanlığın minnətdarlığını bildirdi.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu",
fotolar
Mahmud MÖHBALIYEVİNDİR**

# Londonda Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 98-ci ildönümü qeyd edilib

***Birləşmiş Krallıqdakı səfirliyimizin və hərbi attaşelik aparatının təşkilatçılığı ilə Londonda Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 98-ci ildönümünə həsr olunan rəsmi qəbul təşkil edilib.***

Londonun "The Royal Garden" mehmanxanasında baş tutan mərasimdə Böyük Britaniyanın Müdafiə Nazirliyinin rəsmiləri, Lordlar Palatası və Parlamentin nümayəndələri, Londonda akkreditə olunmuş bir sıra dövlətlərin səfirləri və hərbi attaşeləri, Azərbaycanın İngiltərədəki diasporasının nümayəndələri də daxil olmaqla 200-dən artıq qonaq iştirak edib.

Əvvəlcə azərbaycanlı opera sənətçisi Selcan Nəsiblinin ifasında Azərbaycan və Birləşmiş Krallığın Dövlət himnləri səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə Silahlı Qüvvələrin yaranma tarixindən, müstəqilliyin bərpa olunmasından sonrakı ilk dövrlərdə çətin ordu quruculuğundan danışıb, hazırda isə ölkənin ərazi bütövlüyünü tam təmin etməyə qadir güclü ordumuzun mövcudluğunu bildirib. Azərbaycanın bir çox müharibələrdən keçərək bu günlərə gəldiyini qeyd edən səfir, Vətənimizin müdafiəsi uğrunda həlak olan qəhrəman oğul və qızlarımızın, zabit və əsgərlərimizin xatirəsinin əbədi yad ediləcəyini vurğulayıb.

Britaniya ilə Azərbaycan arasındakı hərbi əməkdaşlıq haqqında məlumat verən səfir bu əməkdaşlığın tarixinin qədim olduğunu, 1918-ci ildə müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin vaxtına qədər uzandığını qeyd edib. Diqqətə çatdırılıb ki, tarixdə "Dunsterforce" adı ilə tanınan hərbi bölmənin Cənubi Qafqazda, o cümlədən Bakıda apardığı hərbi əməliyyatların həm Azərbaycan, həm də Britaniya tarixində xüsusi yeri var. Ölkələrimiz arasındakı hərbi əməkdaşlığın bu gün də yüksələn xətlə inkişaf etdiyi və gələcəkdə də uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan səfir, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini və Azərbaycan Silahlı Qüvvələrinin 80 faizinin bu gün səngərlərdə olduğunu qeyd edib. Diplomat vurğulayıb: "Bu gün işğal vəziyyəti regionda təhlükəsizliyi ciddi təhdid edir. Buna baxmayaraq, Azərbaycan Ordusu öz məramını göstərərək dünyadakı sülhə və Avro-Atlantik məkandakı sabitliyə öz töhfəsini verib və buna davam edir".

Tədbirdə çıxış edən Birləşmiş Krallıq Müdafiə Nazirliyinin Beynəlxalq Strategiya üzrə baş direktoru Nick Gurr təmsil etdiyi nazirlik adından Azərbaycan tərəfinə təbriklərini çatdırıb, uğurlu ikitərəfli hərbi əməkdaşlıq haqqında tədbir iştirakçılarını məlumatlandırıb. Britaniyalı və azərbaycanlı hərbçilərin birgə təlimlərdə iştirak etdiyini nümunə olaraq qeyd edib. Bundan başqa, dəniz təhlükəsizliyi və digər sahələrdə də əməkdaşlığımızın gələcəkdə daha da inkişaf etdirilməsinin planlaşdırıldığı bildirilib.

Azərbaycanda keçirilən beynəlxalq yarışlara toxunan Britaniya rəsmisi, ölkəmizin Birinci Avropa Oyunları, Formula-1 Avropa Qran-prisi kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini söyləyib. Azərbaycana səfəri zamanı ölkənin uğurlu inkişaf strategiyasının şahidi olduğunu vurğulayıb.

Təhlükəsizlik və müdafiə məsələlərinin bütün dünya üçün vacib olduğunu qeyd edən Müdafiə Nazirliyinin rəsmisi, Birləşmiş Krallığın Azərbaycanın NATO, BMT və başqa beynəlxalq təşkilatlar ilə bu sahədəki əməkdaşlığını yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.

Tədbir çərçivəsində Silahlı Qüvvələrimizə həsr olunmuş videoçarxlar nümayiş etdirilib və rəsmi hissədən sonra ziyafət təşkil olunub.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

*Redaksiyamızın qonağı*

# Hərb tarixinin öyrənilməsi vacib məsələdir

*Rubrikamızın qonağı Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili, professor Yaqub Mahmudovdur.*

Görkəmli tarixçi söhbətimizə başlamazdan öncə başda Müdafiə naziri general-polkovnik Zakir Həsənov olmaqla ordumuzun şəxsi heyətini aprel döyüşlərində qazanılan qələbələrə görə və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik etdi, onlara cansağlığı, Vətənimizin bütövlüyü naminə xidmətlərində uğurlar arzuladı. Xalqımızın şanlı hərb tarixindən, sərkərdələrindən söhbət açan professor bildirdi ki, tarix zaman-zaman dəyişir. "Azərbaycan XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay-da ikiyə bölündükdən sonra bizə tariximizi unutdurublar. Çalışıblar ki, dövlətçilik tariximizi, mədəniyyətimizi, hərb tariximizi yaddaşlarımızdan tamamilə silsinlər. Bu baxımdan hesab edirəm ki, sizin qəzetiniz vasitəsilə hərb tariximizin öyrənilməsi istiqamətində vaxtaşırı şəxsi heyətə maraqlı məlumatların çatdırılması bir vətəndaşlıq nümunəsidir."

AMEA-nın müxbir üzvü xalqımızın zəngin hərbi ənənələr tarixindən maraqlı bilgilər çatdıraraq dedi:

- Bu hərbi ənənələrin dərin kökləri var. Xalqımız döyüşkən oğuz türk və qıpçaq türk tarixinə sıx bağlı olduğu üçün daimi yerdəyişmələrə - yaylaq, qışlaq mədəniyyətinə sahiblənmişik. Yəni bütün bunlar həmişə millətimizi at belində tərbiyə edib. Ərazilərimiz yadelli işğalçıların hücumuna məruz qalanda, döyüşkən türk tayfaları birləşərək böyük bir hərbi qüvvəyə çevrilirdi. Yadellilər zaman-zaman zəngin sərvətimizə görə, ərazilərimizi istila etməyə çalışıblar. Xalqımız özünü müdafiə etməyə məcbur olub. Nəticədə zəngin tariximiz yaranıb. Deyək ki, İran şahı sərkərdə II Kir böyük bir dünya imperiyasına sahib idi. Orta Asiyanı, Misirə qədər geniş əraziləri tutmuşdu. Amma Arazdan Şimala torpaqlarımıza hücum edəndə Azərbaycan sərkərdəsi qadın hökmdar Tomris onu məğlubiyyətə uğratdı və döyüş meydanında həlak oldu. Qaniçən Kirin başını qan tuluğuna saldırdı ki, o doyunca bu qanı içsin. Kir hücum etməmişdən öncə sərkərdə Tomris ona dəfələrlə müraciət edərək bildirir ki, ərazilərimizə hücum etməsin, qan tökülməsin. O isə hücum etdi və məğlub oldu. Azərbaycan hökmdarlarından Cavanşir də sərkərdəlik, diplomatiya və dövlətçilik tariximizdə xüsusi yeri olan görkəmli şəxsiyyətlərdəndir. Zamanında Bizans imperiyası ilə döyüşlərdə, İran qoşunları tərkibində hər zaman qəhrəmanlıqlar göstərib. Sonra böyük imperiya qarşısında Babək gücünü göstərib. O, nizami ərəb ordusunu dəfələrlə məğlubiyyətə uğratmışdı.

- Azərbaycan xalqının Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən kimi böyük tarixi şəxsiyyətləri var, - deyə tarixçi alim şanlı hərb tariximizin müxtəlif dövrlərindən danışdı. "Şah İsmayıl Xətai böyük bir imperiya yaratdı. 237 il davam edən bu imperiyada öz doğma dilini dövlət dili səviyyəsinə qaldırdı. Vətəninin sərhədlərini genişləndirdi və imperiya qurdu. Hərb tariximizin əsas nailiyyətlərindən biri odur ki, biz nəinki torpaqlarımızı yadellilərin işğal etməsinə imkan verməmişik, eyni zamanda dövlətçilik ənənələrimizi qoruyub saxlamışıq. Böyük imperiya yaratmaq xalq üçün şərəf işidir. Hər xalq öz tarixində imperiya qura bilməyib. Ona görə də belə zəngin dövlətçilik tariximizi bizə unutdurmağa çalışıblar. Azərbaycan Şah Abbas kimi dünya şöhrətli sərkərdənin



Vətənidir. Bütün tarixi mənbələrdə "Böyük Abbas," - deyə adlandırılan sərkərdə orduda islahatlar keçirdi, nizami qoşun yaratdı. Xalqımız üçün fəxrdir ki, tariximizdə Nadir şah Əfşar kimi məşhur sərkərdəmiz var. Dünyada onu Napaleon ilə müqayisə edirlər. Onun tarixini bütün dünya öyrənir. Hindistanı Makedoniyalı İsgəndər, Əmir Teymur fəth etmişdi. Üçüncü dəfə isə, Hindistanı fəth edən Azərbaycan sərkərdəsi və hökmdarı Nadir şah Əfşar olub. O, Asiyanın son fatehi adlanır. Biz o tarixin varisləriyik. Bu baxımdan da sonrakı mərhələlərdə hərb ənənələrimiz davam edib."

Hərb tariximizin öyrənilməsinin vacibliyini vurğulayan millət vəkilinə görə, Şimali Azərbaycanın çarizm dövründə müsəlmanlara hərbi vərdişlərin qadağan edilməsinə baxmayaraq rus artilleriyasının Allahı sayılan Əlağa Şıxlinskiyə, Səməd bəy Mehmandarovun hərbi istedadına heyranlıqla həsəd aparırdı. "Hərbi istedada malik, qoşun idarə etməyə qadir, hərbi taktikanı bilən sərkərdələrimiz çox olub və olacaq. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qısa vaxtda yaradılmasında və formalaşmasında tam artilleriya generalları S.Mehmandarovun və Ə.Şıxlinskinin əvəzsiz xidmətləri olub. Cəmi 23 ay yaşayan cümhuriyyətin ordu quruculuğu tarixi bu günümüz üçün əsl örnəkdir. Qarşıdan Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü gəlir. 26 iyun bizim şərəf tariximizdir. Hər bir əsgər bilməlidir ki, onun ölkəsinin 5 min illik zəngin dövlətçilik tarixi var."

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyət dövrünü epoxa adlandıran professor Y.Mahmudov qeyd etdi ki, Sovet dönəmində C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması şanlı hərb tariximizdə yeni səhifələr açdı. "Həmin dövrün canlı şahidiyəm. Məktəb yeni açılanda o zaman paytaxt Moskvadan Sovet rəhbərliyinin nümayəndələri gəlib yoxlama aparırdılar. Onlar belə bir məktəbin Azərbaycanda açılmasına mane olmağa çalışırdılar. Lakin ümummilli liderimizin dəmir iradəsi və polad qətiyyəti sayəsində məktəb açıldı və müstəqillik illərində ordunun zabit korpusunun yaradılmasında baza rolunu oynadı. Bu yaxınlarda dahi rəhbərə həsr olunmuş filmin çəkilişi ilə bağlı Naxçıvanda olarkən Heydər Əliyev adına Hərbi Liseyi də ziyarət etdik. Ulu öndərimiz tərəfindən yaradılan bu məktəbi ziyarət edərkən, həqiqətən, qürur hissi keçirdim. Bu gün həmin liseyin məzunları müxtəlif ixtisaslara yiyələnərək Silahlı Qüvvələrimizin qoşun növlərində xidmət edirlər."

Millət vəkili söhbətində onu da qeyd etdi ki, müstəqillik dövründə məhz ümummilli liderimiz Heydər Əliyev ordumuzun müasirləşməsinin əsasını qoydu. "Qürur hissi keçirirəm ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyev ulu öndərimizin başladığı ordu quruculuğu strategiyasını uğurla davam etdirir. Onun diqqət və qayğısı sayəsində ölkənin müdafiə qüdrəti günü-gündən artırılır. Bir tarixçi, millət vəkili olaraq mən də bu proseslərin içərisindəyəm. Xalqın güclü ordusu olmalıdır. Dövlət güclü ordusu olmadan yaşaya bilməz. Orduya xalqın birləşmiş yumruğu kimi baxıram. Ordu xalqın vuran tək yumruğudur. Bu gün dünyada kim güclüdürsə, onun sözü, səsi eşidilir. Bu gün Azərbaycanda hərbi sahəyə ayrılan vəsait Ermənistanın bütün dövlət büdcəsindən çoxdur. Bu belə də olmalıdır. Çünki bizim ərazilərimiz işğal olunub. Torpaqlarımızın 20 faizi düşmən tapdağı altındadır. Əhalimizin 25 faizə qədəri qaçqın həyatı yaşayır. Bəs biz necə etməliyik?"

Aprel döyüşlərində əsgər və zabitlərimizin qəhrəmanlıq nümunələrinin də hərb tariximizdə yeni səhifə açdığını deyən Yaqub müəllim əminliklə bildirdi ki, zəngin hərb ənənələrinə malik olan xalqımızın cəngavər oğulları torpaqlarımızı azad etməyə qadirdirlər. "Aprel döyüşlərinə böyük önəm verirəm. Azərbaycan əsgəri gördü ki, onun arxasında xalqı dayanıb. Xalq bir yumruq kimi birləşərək əsgər və zabitinin yanında oldu. Bax, budur, xalqımızın ordusuyla bərabər döyünən ürəyi. Bu döyüşləri şanlı hərb tariximizin davamı və gələcək qələbələrimizin başlanğıcı hesab edirəm. İşğalda olan torpaqlarımızı yalnız Ali Baş Komandanın ətrafında sıx birləşən xalqımız və müzəffər Azərbaycan Ordusu azad edəcək."

Tanınmış alim, söhbətinin sonunda qəzetimizin səhifələrində hərb sənətimizin görkəmli nümayəndələri, sərkərdələrimiz haqqında yazıların dərc edilməsi, tarixçi alimlərin iştirakı ilə ordunun hərbi hissələrində görüşlərin təşkil edilməsi ilə bağlı tövsiyələrini də çatdırdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# “Avropa Şurasının Ermənistana sərt münasibət göstərməməsi yeni böyük fəsadlara yol açır”

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasının ilk iş günü ənənəvi olaraq Büro və Daimi Komitənin fəaliyyəti haqqında məruzə dinlənildikdən sonra hesabat ətrafında müzakirələrlə başlayıb.***

Böyük Britaniyadan olan deputat İan Liddel-Qreinerin təqdim etdiyi hesabatla bağlı müzakirələrdə Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov çıxış edərək bir sıra tənqidi mülahizələrini bildirib.

Qeyd olunub ki, Büro və Daimi Komitənin gördüyü işlərə dair hesabatın "İnkişaf haqqında məruzə" adlandırılması məntiqidir. Ardıcıl fəaliyyət olan yerdə irəliləyişlərin, müəyyən nailiyyətlərin əldə edilməsi təbii sayılmalıdır. Ancaq görülən işlər arasında çəki və miqyas fərqi var.

Təşkilat olaraq Avropa Şurasından və onun hər növbəti inkişaf hesabatından gözlənilən elə məsələlər var ki, onların həlli yolunda atılmış hər bir ciddi addım, həqiqətən də çox böyük tərəqqi adlandırıla bilər. Yalnız bu təşkilatın deyil, dünyanın siyasi həyatında əlamətdar hadisəyə çevrilər.

Lakin təəssüflər olsun ki, sessiyalar bir-birini əvəz edir, milyonlarla insan ümidlə nəticə gözləyir, "inkişaf haqqında məruzə" adlandırılan hesabatlarda isə nəzərəçarpacaq inkişaf barədə bir sətir də gözə dəymir. Bu il Avropa Şurasına üzvlüyünün 15 ili tamam olan Azərbaycan 2016-cı ildə başqa kədərli yuvarlaq ildönümünü də qarşılamaq məcburiyyətindədir. Düz 25 il əvvəl, 1991-ci ilin sonunda Ermənistan hərbi birləşmələri xarici qüvvələrin köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ vilayətində 1989-cu ildən başladıqları işğalçılıq fəaliyyətini Xankəndinin azərbaycanlılar yaşayan son kəndini zəbt etməklə başa çatdırıb. Kərkicahan kəndində 40-a yaxın insan vəhşicəsinə qətlə yetirilib, 50 qadın, uşaq, qoca ağır yaralanıb, 100-lərlə ailə öz vətənində məcburi köçkünə çevrilib. İllər ötdükcə dünya birliyinin, beynəlxalq təşkilatların erməni zülmünə qarşı etinasız münasibəti nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən başqa onun ətrafındakı 7 rayonu da işğal olunub, qaçqın və məcburi köçkünlərin sayı 1 milyona çatıb. Avropa Şurası Ermənistanı öz qətnamələrində rəsmən bir işğalçı olaraq təsbit edib. Bəs sonra? İşğalçıya qarşı hansı addım atılıb? Bir neçə ay öncə burada Sərsəng su anbarı, Ermənistanın Azərbaycana qarşı apardığı su təcavüzü ilə əlaqədar qətnamə qəbul edilib. Ermənistan o qətnamənin tələblərini yerinə yetirmək üçün heç bir addım atmır, belə bir niyyəti də yoxdur. Avropa Şurası isə yenə əvvəllərdə olduğu kimi, Ermənistanın belə özbaşınalıqlarına dözür. Bütün bunlardan sonra da başlayırıq fəaliyyətimizdəki inkişafdan dəm vurmağa. Kimi aldadırıq?! Xoşagəlməz bir qanunauyğunluq var. Cinayət cəzasız qalırsa, qanunsuz əməlin qiyməti vaxtında verilmirsə, bu pis nümunə digər yeni daha pis nümunələrin ortaya çıxmasına imkan yaradır.

Bildirilib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 2001-ci ildə Avropa Şurasında bir üzv dövlətin digər üzv dövlətin ərazisini işğal etməsinə yeganə nümunə idi. Lakin Avropa Şurası vaxtında ortaya prinsipial mövqe qoymadığına, qətiyyət göstərmədiyinə və fəaliyyətsizlik nümayiş etdirdiyinə görə AŞPA ailəsində digər üzv dövlət tərəfindən ərazisi işğal edilən, separatizmdən əziyyət çəkən dövlətlərin sayı artıb.

**AZƏRTAC-ın materialları əsasında**

Ordu və cəmiyyət

# Vətən sevgisi əbədidir

*Vətən... Bu kəlmə nə qədər də mənalı və dərindir, məzmunu, qayəsi də hikmətlidir. Vətəni, milləti qorumaq hər bir vətəndaşın şərəf borcudur. Əgər vətəndaş şərəf borcunu sözsüz yerinə yetirirsə, ən yüksək hörmətə layiqdir.*

Umummilli liderimiz Heydər Əliyev dəfələrlə ərazi bütövlüyümüz uğrunda vuruşan, əlil olan insanlara qayğı göstərilməsini vurğulayırdı. "Döyüşlərdə xəsarət almış, əlil olmuş insanlar da, təbiidir ki, bilərəkdən döyüşə gediblər, bunu vicdanın çağırışı ilə ediblər, döyüşüb, torpaqları qorumağa cəhd göstəriblər. Çoxları qəhrəmanlıqlar göstəriblər. Ancaq xəsarət alıblar, əlil olublar. Onlar bizim cəmiyyətdə yaşayırlar və yaşayacaqlar. Deməli, onlara da bizim qayğımız, diqqətimiz daim olmalıdır."

Döyüşlərdə qəhrəmanlıq göstərmiş insanların şücaəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Cəmiyyətimizin bütün təbəqələrinin bu insanlara xüsusi diqqəti isə göz qabağındadır. Çünki döyüşlərə gedən o insanlar bütün olacaqlardan xəbərdar idilər. Ancaq Vətəni, torpağı qorumaq və şəhidliyi göz önünə alıb vuruşa getmək - bunlar hamısı onların daxili mənəviyyatının bəhrəsidir. Bu, millətin mənəvi ucalığıdır.

Neftçala rayonunda ezamiyyətdə olanda öyrəndim ki, aprelin əvvəllərində cəbhə xəttində düşmən təxribatları baş verərkən igid oğullarımız ordu sıralarına qoşulmaq üçün aidiyyəti qurumlara müraciət ediblər. Onların arasında birinci Qarabağ müharibəsi əlilləri də olub. Müharibənin dəhşətlərini yaşamış oğulların belə bir gündə öndə olmaları gənclərimiz, cəmiyyətimiz üçün örnəkdir. Vətənə sevgisi gözlərinin nurunda əks olunan oğullardan biri - Nəcəf Bağırovla söhbətləşirəm.

Nəcəf Bağırov 1973-cü ildə Boyat kəndində anadan olub. İkinci qrup Qarabağ əlilidir. Vətənimizin başının üstünü qara buludlar alanda, o, Gəncə Texnologiya İnstitutunun tələbəsi idi. Vətəninə sözlərlə ifadə edilməyəcək qədər böyük olan sevgisinə görə, təhsilini yarımçıq qoyaraq 1992-ci ildə torpaqlarımızın müdafiəsinə qalxır. Tərtər, Borsunlu, Tapqaraqoyunlu istiqamətində gedən döyüşlərdə manqa komandiri kimi iştirak edir. Bir dəfə yeddi gün mühasirədə



qalırlar. Ölümü gözləri önünə alaraq düşmənə böyük itkilər veriblər və mühasirədən çıxıblar. O deyir ki, vahid komandanlığın olmaması üzündən bütün cəbhə boyu məğlubiyyətlərimiz olurdu, torpaqlarımızı itirirdik.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vahid komandanlıq altında nizami ordu yarandı və cəbhədə əsaslı dönüş baş verdi. 1994-cü il aprelin 22-dən 23-nə keçən gecə qrad mərmisinin partlaması nəticəsində Nəcəf sağ əlindən, sağ böyrək və qaraciyərindən yaralanır. Onu döyüş meydanından həmkəndlisi, hazırda hərbçilərimizin sağlamlığının keşiyində dayanan Hilal Abdullayev çıxarır. Qarabağ əlili indiki yaşamını möcüzə sanaraq o anları belə xatırlayır:

- O anda bütün vücuduma xoş bir istilik yayıldı. Sanki hər şey bir anın içindəcə donub dayandı. Qulaqlarıma sükut çökdü. Bir müddətdən sonra o səssizliyin içində həyəcanlı bir səs eşitdim, məni o sükutun içindən Hilal çıxardı.

Müsahibimə görə, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuz çox uğurlar qazanıb. "İndi Azərbaycan inkişaf etmiş ölkələr sırasındadır. Ordumuz regionun ən güclü ordusudur. Aprelin əvvəllərində cəbhə xəttində baş verənlər isə bunu bir daha sübut etdi. İnanırıq ki, çox yaxında xalqımız həsrətində olduğu Qələbə xəbərini alacaq."

Məktəblərdə gənc nəslə vətənpərvərlik ruhunun aşılanmasında veteranlarımız da yaxından iştirak edirlər. Müsahibim də bir zamanlar təhsil aldığı məktəbdə keçirilən tədbirlərə tez-tez dəvət olunmasından danışaraq həvəslə qeyd etdi ki, hazırda qürurlu, vətənpərvər gəncliyimiz yetişməkdədir. Nəcəfin övladlarına qoyduğu adlar - Beyrək və Burlaxatun da onun xalqımızın qəhrəmanlıq tarixinə bağlılığına bir misaldır.

Qarabağ əlili aprel hadisələrindən danışaraq bildirdi ki, Vətən yolunda, torpaq yolunda, xalq yolunda şəhid olmaq insanlığın və insan mənəviyyatının ən yüksək zirvəsinə ucalmaq deməkdir. "O günlərdə rayonumuzun iki igid oğlu - Samid İmanov və Elmdar Səfərov qəhrəmanlıq göstərərək şəhid oldular. Vida mərasimlərində şəhidlərimizin tabutunun üçrəngli Dövlət bayrağımıza bürünməsindən və alqış sədaları altında izdihamlı dəfnindən qürur duyduq. Çünki şəhid olan insan öz vətənpərvərliyi, arzusu və yüksək mənəviyyatı ilə torpaqlarımızı, Vətənimizi qorumaq üçün canından keçir. Bu, onların mənəvi istəyi, vətənpərvərlik hissiyyatıdır."

Dağlıq Qarabağ münaqişəsinin müharibə yolu ilə həlli Azərbaycan üçün müşkül məsələ deyil. Sadəcə sivil bir dövlət olaraq Azərbaycan ona səy göstərir ki, münaqişə sülh yolu ilə həll edilsin və işğal altında olan torpaqlar azad olunsun. Amma bununla belə xalqımız hər an Ali Baş Komandanın əmri ilə işğalda olan ərazilərimizi azad etmək uğrunda mübarizəyə hazırdır.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Ovqat

# Şair təbiətli döyüşçü

*"N" hərbi hissəsinin ön xətdəki bölməsində olarkən bir hadisə diqqətimi çəkdi. Orta məktəb şagirdindən əsgərlərə məktub gəlmişdi. Məktubun sətirlərində döyüşçülərimizə bəslənən rəğbət, güvən, sevgi hissləri öz əksini tapmışdı. Bu sətirləri Binəqədi rayonundakı 18 saylı orta məktəbin 4-cü sinif şagirdi Nuri İmamverdiyev qələmə almışdı. O, döyüşçü qardaşlarına olan ürək sözlərini ifadə etmişdi. Şagirdlərin ön xətdəki əsgərlərlə məktublaşması təqdirəlayiq haldır. Sözsüz ki, Nurinin bu diqqəti qarşılıqsız qalmamışdı. Əsgərlərdən biri tərəfindən də ona cavab məktubu yazılmışdı. Məhz həmin əsgərlə tanış oluram. Bu gözəl sətirlərə Füzuli rayonundan olan əsgər Elşad Sultanovun cavab yazdığını öyrənirəm.*



Komandirləri onun vətənpərvər, nizam-intizamlı əsgər olduğunu, nümunəvi xidmətinə görə fəxri fərmanla təltif edildiyini deyirlər. Ən əsası Elşadın yaxşı şeirlər yazdığını və poeziya həvəskarı olduğunu öyrənirəm. Məhz buna görə də Nurinin məktubuna bütün əsgər yoldaşları adından Elşad cavab yazmışdı.

Gəlin, əvvəlcə məktəblinin məktubuna diqqət yetirək:

"Salam, əsgər qardaşlarım, mən 4-cü sinif şagirdi İmamverdiyev Nuriyəm. Bu məktubu bütün şagird dostlarım adından yazıram. Bakıda olsaq da, bizim ürəyimiz daim sizinlədi. Biz bilirik ki, siz Vətənin keşiyində qürurla və yorulmadan dayanırsız. Mənim atam da hərbçidi. Mən bu peşənin necə çətin və şərəfli olduğunu bilirəm. Mənim kiçik qardaşımın hələ 6 yaşı var. O deyir ki, böyüyəndə hərbçi olacaq. Mənim özüm də böyüyüb sizin kimi Vətənin keşiyində dayanmağı arzu edirəm. Sizin Vətəni necə şərəflə qoruduğunuzu bilirəm. Bu yaxınlarda məktəbimizin önündən 2 şəhidin cənazəsini aparırdılar. Onlar bizim məktəbin məzunları idi. Bütün müəllimlərim və anam ağlayırdı, həmçinin böyük qürur hissi keçirirdilər. Ancaq şəhidlərimiz ölməyiblər, mən bilirəm ki, daim bizim qəlbimizdə yaşayacaqlar. Mən bütün sinif yoldaşlarım adından bu məktubu yazmağı özümə borc bildim. Sizdən məktubumuzu oxuyub bütün əsgər yoldaşlarınıza çatdırmağı xahiş edirəm. Cavabınızı gözləyəcəm. Allah sizi qorusun."

Məktubun onlarda böyük ruh yüksəkliyi yaratdığını deyən əsgər Sultanov isə cavab məktubunda belə yazırdı...

"Salam, balaca qəhrəman, biz sənin məktubunu aldıq. Mən bu məktubu oxudum və bütün əsgər yoldaşlarıma çatdırdım. Əsgər yoldaşlarımla məktubu oxuduqdan sonra çox qürurlandıq və sizlərlə fəxr etdik. Sizin dəstəyinizi və güvəninizi hiss elədikcə, Vətənin keşiyində daha inamla və qürurla dururuq. Sizlər bizim gələcəyimizsiz, biz bir daha əmin olduq ki, bizdən sonra sizin kimi gənc qəhrəmanlar Vətənin keşiyində qürurla dayanacaq. Məktubunda qeyd etmişdin ki, məktəbinizin 2 məzunu şəhid olub. Sən dediyin kimi, onlar ölməyiblər, bizim qəlbimizdə daim yaşayacaqlar. Biz Vətənin keşiyində inamla dayanırıq. Nə qədər çətin olsa belə, Vətənin keşiyində dayanmağı özümüzə borc bilirik və bundan şərəf duyuruq. İnanırıq ki, sən və sənin qardaşın da böyüyüb hərbi xidmətə yollanacaq, Vətənə layiqli oğul olacaqsınız. Narahat olmayın, biz burada sizi son damla qanımıza qədər qoruyacağıq. Sən də bizim məktubu oxu və məktəbli yoldaşlarına çatdır. Sizinlə və sizin kimi vətənpərvər şagirdlərlə fəxr edirik."

Hər iki məktubun "Azərbaycan Ordusu" qəzetində dərc olunacağını bilən Elşad çox sevinir. Onun "Vətən" şeirini də oxucularımıza təqdim edirik:

*Ey ana torpağım,*
*ey ana Vətən,*
*Sənə oğul kimi*
*baş əyirəm mən.*
*Qələbə çalmaqçün*
*doğulmuşuq biz,*
*O günü həsrətlə*
*gözləyirəm mən.*

*Son döyüş olarsa -*
*buna hazırıq,*
*Zəfər döyüşündə*
*yenilmərik biz,*
*Bizimdir qələbə,*
*zəfər bizimdir,*
*Düşmən qarşısında*
*əyilmərik biz.*

*Sənin əsgərlərin*
*mətin, qəhrəman,*
*Bu soraq yetişsin*
*yaxın-uzağa.*
*Qələbə bayrağı*
*yetirəcəyik,*
*Günlərin birində*
*biz Qarabağa.*

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Formula-1 yarışları maraqlı anlarla yadda qaldı

***Azərbaycanın paytaxtı Bakı növbəti dəfə dünya əhəmiyyətli mötəbər idman yarışına ev sahibliyi etdi. Avropanın idman nəbzi Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyündü. Dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Avropa Qran-prisi paytaxtımızın mədəni və idman həyatında önəmli hadisəyə çevrildi.***

AZƏRTAC-ın verdiyi xəbərə görə, dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1 Avropa Qran-prisinin paytaxtımızda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirdi. Birinci Avropa Oyunlarından sonra Formula-1 kimi mühüm yarışın Bakıda təşkil edilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir.



İyunun 19-da Bakıda Formula-1 Avropa Qran-prisinin möhtəşəm açılış mərasimi keçirildi. Karnaval üslubunda hazırlanan mərasimdə Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdir qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirildi. Beynəlxalq idman aləmi müstəqillik yolu ilə uğurla addımlayan Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialına bələd oldu. Dünya qarşıya qoyulan hər bir məqsədin, niyyətin sürətli inkişafı ilə örnək olan Azərbaycanda necə uğurla reallaşmasına şahidlik etdi. Milli mədəniyyətimizi Formula-1 dəyərləri ilə birləşdirən açılış mərasimində alov, su, külək, irəli və birlikdə rəmz və modellərinin vəhdəti könüllülər, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət 626 nəfərlik heyət tərəfindən təqdim edildi. Tədbirin sonunda Azərbaycanın üçrəngli nəhəng bayrağı tamaşaçıların alqış sədaları altında meydana gətirildi.

Axşam saat 17:00-da Bakıda Formula-1 Avropa Qran-prisinə start verildi. Öncə Azərbaycan Dövlət Uşaq Filarmoniyasının qırx nəfərdən ibarət gənc kollektivi Dövlət himnini ifa etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, "Formula One Management"in prezidenti Berni Ekklstoun, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Tod Formula-1 Avropa Qran-pri yarışına baxdılar.

22 pilotun qalib adı uğrunda mübarizə Niko Rosberqin qələbəsi ilə başa çatdı. O, 1 dəqiqə 48.942 saniyəlik nəticə ilə birinci oldu. İkinci yeri "Ferrari"nin pilotu Sebastian Fettel, üçüncü yeri isə "Force India"nın sürücüsü Serxio Peres tutdular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Niko Rosberqə kuboku təqdim etdi. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva isə mühəndislər kubokunu "Mercedes" komandasının nümayəndəsinə təqdim etdi.

Yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr vururdular. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərin tam simasını görmək imkanı qazanmışdılar.

Azərbaycanda keçirilən Formula-1 Avropa Qran-prisi ən nüfuzlu idman yarışlarından biri kimi dünya kütləvi informasiya vasitələrinin da diqqət mərkəzində oldu.

Perunun nüfuzlu "El Peruano" qəzetində "Formula-1 Azərbaycanda" sərlövhəli məqalə dərc edilib. Məqalədə Şərqlə Qərbin qovuşuğunda yerləşən, çoxəsrlik ənənələri, təbii sərvətləri, özünəməxsus tarixi abidələri və zəngin mətbəxi olan müasir Azərbaycan haqqında ətraflı məlumat verilir. Ölkəmizin tarixində ilk dəfə Formula-1 Avropa Qran-pri yarışının keçirilməsindən bəhs edilir.

Birləşmiş Ərəb Əmirliklərinin "Gulf News" qəzetində Qran-prinin ulduz elçisi Fernando Alonsonun ölkəmizlə bağlı maraqlı fikirləri, təəssüratları yazıda yer alıb: "Yenidən Bakıda olmaq möhtəşəm hissdir. Son səfərimdən bəri burada baş verən dəyişikliklər valehedicidir. "Sehrli ilmələr" qalereyasını və Heydər Əliyev Mərkəzini ziyarət edərkən mən Azərbaycanın zəngin mədəniyyəti ilə tanış oldum. Velosipedlə şəhərdə gəzintim məndə gözəl təəssüratlar yaratdı".

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Dünyanın ən təhlükəsiz yolları Norveçdədir



Avropa yollarında təhlükəsizliyin inkişafına görə hər il təqdim olunan mükafata (Road Safety PIN Award for Outstanding Progress in Road Safety) bu il Norveç layiq görülüb. Bu, Norveç Nəqliyyat Nazirliyinin mətbuat üçün məlumatında öz əksini tapıb.

Norveç yollarında 2001-ci ildən 2015-ci ilədək ölüm halları 57 faiz - 275-dən 117-yə qədər azalıb. Əgər 2010-cu ildə yol nəqliyyat hadisələrində ölkənin hər milyon sakininə 43 ölüm hadisəsi düşürdüsə, 2015-ci ildə bu rəqəm 23-ə enib. Bu, hazırda Avropada və dünyada ən aşağı göstəricidir.

## Kareliyada baş vermiş faciədə 11 uşaq həlak olub



Rusiya Federasiyası Kareliya Respublikasında baş vermiş faciə nəticəsində 11 uşaq həlak olub.

Yerli KİV-lərin yaydığı xəbərə görə, "Kareliya Onlayn" şirkətinin təşkil etdiyi turist səfərinə 12-15 yaşlı 47 uşaq və 4 təlimçi iştirak edib. Syamozero gölü ilə hərəkət edən qayıqlar güclü fırtına nəticəsində aşıb və nəticədə 11 uşaq və 1 təlimçi həlak olub.

Hadisə ilə bağlı Rusiya Təhqiqat Komitəsində cinayət işi açılıb.

## Devid Kemeron: Britaniyanın Aİ-dən çıxması ölkə iqtisadiyyatı üçün ağır nəticələr yaradacaq



Böyük Britaniyanın Avropa İttifaqından çıxması ölkə iqtisadiyyatı üçün çox ağır nəticələr yaradacaq. Bu fikri Britaniyanın Baş naziri Devid Kemeron "Sunday Times" qəzetinə müsahibəsinə bildirib.

Baş nazir ölkənin Avropa İttifaqından çıxmasının tərəfdarı olan konservatorlar Maykl Qouvu və Boris Consonu təşviqat kampaniyası zamanı həqiqətə uyğun olmayan bəyanatlar səsləndirməkdə günahlandırıb.

## ABŞ-da anomal istilər nəticəsində 4 nəfər həyatını itirib



KİV-lərin məlumatına əsasən ABŞ-ın cənub-qərbində bazar günü anomal isti hava şəraiti ilə bağlı hadisələr nəticəsində azı 4 nəfər həlak olub.

Şiddətli istilər nəticəsində baş verən ölüm hadisələri Arizona ştatında qeydə alınıb. CNN telekanalının məlumatına əsasən, həyatını itirən 4 nəfərdən 2-si piyada turizmi ilə məşğul olurdu.

Anomal isti havalar Kaliforniya ştatının cənub hissəsində, Arizona ştatının müxtəlif rayonlarında, Nevada ştatının cənubunda və Nyu-Meksiko ştatında müşahidə olunub. Bu bölgələrdə termometrlərin göstəriciləri Selsi şkalası üzrə 47 dərəcəyə qədər yüksəlib. Regionun bəzi hissələrində təbii yanğınlar qeydə alınıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

## Pilotsuz uçan aparatlar

Müasir hərbi aviasiyanın əsas inkişaf istiqamətlərindən biri də pilotsuz uçan aparatların hazırlanmasıdır. Pilotsuzlar və dronlar döyüş əməliyyatlarında mühüm yer tutur, yaxın gələcəkdə də onlardan geniş istifadə edilməsi qərara alınıb. Bu, müasir aviasiyanın əsas nailiyyətlərindən sayılır. Aparatlardan nəinki hərbi, mülki sahədə, eyni zamanda aeroçəkilişlərin aparılmasında, patrul xidmətində, geodeziya axtarışlarında, müxtəlif obyektlərin monitorinqində də istifadə edilir.

Orduda pilotsuz uçan aparatlar bir çox hərbi tapşırıqların yerinə yetirilməsində mühüm rola malikdir. Müasir dronların çoxu məhz bu məqsədlər üçün yaradılıb. Son illər daha çox pilotsuz uçan zərbə aparatları hazırlanmağa başlanıb. Onlardan düşmənə qarşı radioelektron mübarizə aparmaq, artilleriya hədəflərinin göstəricisi kimi istifadə edilir.

Pilotsuz uçan aparatların ilk layihəsi təyyarələrin yaradılmasından sonra işlənilib. Onlardan keçən yüzilliyin sonlarında istifadə edilib və seriyalarla istehsalı həyata keçirilib. XX əsrin 90-cı illərində bu cür layihələrin işlənilməsinə üç milyard dollar, 2003-cü ildə isə bu istiqamətdə daha bir milyard dollar vəsait xərclənib.

Hazırda müasir texnologiya əsasında müasir pilotsuz uçan aparatların hazırlanması üzrə işlər aparılır. Yeni aparatlar ballistik raketlərə, pilotsuz qırıcılara, mikrodronlara qarşı mübarizədə yardımçı olacaq.

Dünyanın bir çox ölkələrində bu istiqamətdə kifayət qədər özəl şirkətlər fəaliyyət göstərir. Müasir dronlar yaxın gələcəkdə hədəfi seçmək və onun məhv edilməsi barədə qərar verməyə qadir olacaq.

İlk pilotsuz uçan aparat distansion idarəolunan "Fairy Queen" təyyarəsidir. Bu təyyarə 1933-cü ildə İngiltərədə hazırlanıb. Ondan qırıcı və zenitlərin məşq edilməsi üçün təyyarə-hədəf qismində istifadə edilib. Seriyalarla istehsal olunan və döyüş əməliyyatlarında geniş istifadə edilən isə qanadlı "Fau-1" alman raketidir. Almanlar raketi "möcüzə-silah" adlandırıblar. 25 minə qədər belə aparat hazırlayıblar və İngiltərəyə qarşı mübarizədə istifadə ediblər. Müharibə dövründə bu aparat vasitəsilə 6 minə qədər düşmən məhv edilib. Müharibədən sonrakı dövrdə isə SSRİ və ABŞ-da da pilotsuz kəşfiyyat sistemləri hazırlanıb. Amerikalılar onlardan Vyetnam müharibəsində istifadə ediblər. Bu aparatlar vasitəsilə təyyarədən çəkilişlər, radioelektron mübarizə aparmaq mümkündür. İsrail də 1978-ci ildə Parisdə keçirilən sərgidə "I0I Scout" ilk pilotsuz uçan döyüş aparatını nümayiş etdirib.

Müasir dövrdə bu aparatların istehsalında liderliyi ABŞ əldə edib. 2012-ci ildə ABŞ ordusunun silahlanmasına cəmi 7.5 min müxtəlif modifikasiyalı pilotsuz uçan aparat daxil edilib. Onların çox hissəsi kəşfiyyat dronlarıdır ki, quru qoşun bölmələrinin tərkibinə daxil edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Eynili Bəhruz Hicran oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98<br>Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 409<br>Nüsxə 4700 |